UOT 792.03
https://doi.org/10.59849/2311-8482.2025.1.193

KƏMALƏ ƏLƏSGƏRLİ*

# KƏMALƏ VEYIS QIZI ƏLƏSGƏRLI. RƏHILƏ HƏSƏNOVANIN SƏNƏT DÜNYASINDA RITUAL-MƏRASIM ESTETIKASININ TƏZAHÜRÜ

(*Bəstəkarın əziz xatirəsinə həsr olunur*)

*Hazırkı məqalə müəllif tərəfindən 14 dekabr 2021-ci ildə Azərbaycan Dövlət İncəsənət və Mədəniyyət Universitetində (Bakı, Azərbaycan) keçirilən "Etnomusiqişünaslıq elmi paradiqmaların kəsişməsində" adlı Beynəlxalq elmi konfransda təqdim olunmuşdur. Zəngin mənəvi dünyaya malik bəstəkar Rəhilə Həsənovanın (1951-2024) musiqi təxəyyülü ritual-mərasim, oyun-tamaşa mədəniyyəti ilə sıx bağlıdır. Tək Azərbaycan deyil, müxtəlif dünya xalqlarının mərasimləri və inancları ilə genetik bağlılıq bəstəkar yaradıcılığının başəriliyini göstərir. O, geniş mənada başa düşülən ritual-mərasim, oyun-tamaşa estetikasının tarixi köklərindən şirə çəkərək qədimilik ruhunu və dərin mətləblərin sirrini quraşdırıb ərsəyə gətirdiyi musiqi əsərlərində açır. Bəstəkarın mərasim tipli kompozisiyalarında instrumental teatr ünsürülərinin və fərdi layihənin mövcudluğu müəllifin həm də rejissor keyfiyyətlərini bəlli edir. Bu baxımdan "ənənəvi musiqi və müasir bəstəkar" problemi məcrasında Rəhilə Həsənovanın yaradıcılığı müasir Azərbaycan musiqisinin son nailiyyətləri sırasındadır.*

***Açar sözlər*:** *səs-ədəd, simvol-mədh, əsatir-inanc, oyun-tamaşa, ritual-mərasim.*

## Giriş

Müasir Azərbaycan musiqisinin ən orijinal, nadir və kreativ simalarından olan, digərlərindən kamali ciddiyyətlə seçilən postbəstəkar Rəhilə Teymur Həsənovanın (1951-2024) sənət dünyası zamanın fövqündə duran və onu yarıb keçən əbədi məfhumlarla zəngindir. Təbiətin əzəlindəki səs-ədəd, işarə-simvol, əsatiri-inanc, ritual-mərasim kimi fenomenal anlayışlar müəllif əsərlərinin ana xəttini, musiqi mətninin altyapısını təşkil edir.

Rəhilə Həsənovanın sənət dünyası çoxqatlı, musiqi düşüncəsi və qavrayışı iti və həssasdır. Onun musiqiyə qeyri-adi dərəcədə sakral yanaşması vardır: bəstəkar öz musiqi dünyasında real qatdan metafizik qata keçidlər yarada bilir. Bu səbəbdən R.Həsənovanın əsərlərinin musiqi mətni göründüyündən daha böyükdür. Əsərlərinin görünməyən məğzini, ruhunu və qatını təşkil edən universal sistemdəki dünyavi "səs-söz-ədəd-simvol" tiplərinin təzahürü heyranedicidir.

Özünü dünya və Kainatın bir zərrəsi kimi dərk edən bəstəkara görə "ibadət edən insan" [1,188] əyyamın fövqündə durur. Bəstəkarın yaradıcılıq yolunun əsas mərhələlərinə nəzər saldıqca onun bir çox dini-fəlsəfi kontekstli əsərləri dramaturji prinsiplərin, metroritmik özəlliklərin, alətləşdirmə xüsusiyyətlərinin müasir təfsiri baxımdan diqqəti cəlb edir. Müxtəlif janrlara aid əsərlər içərisində "Ürfani" (1988), "Qəsidə" (1991), "Dərviş" (1992), "Mərsiyə" (1993), "Səma" (1994), "Pirəbədil" (1996), "Müğfil" (2001), "Səcdə" (2006), "Ayin" (2008) kimi mərasim tipli kompozisiyalarda instrumental teatr ünsürlərinin və fərdi layihənin mövcudluğu müəllifin həm də rejissor keyfiyyətlərini bəlli edir. Bu qarışıq tərkibli ansambl əsərlərindəki qədimilik ruhu müasir bəstəkarlıq texnikası (aleatorika, minimalizm, sonorika) ilə qüvvətləndirilir. Adı qeyd olunan kompozisiyaların fərdi müəllif təfsiri və konsepsiya dərinliyi mükəmməldir.

## Əsas məzmun

R.Həsənova öz əsərlərində universal sistemin İlahi məntiqlə idarə olunmasını müxtəlif dramaturji yollarla orijinal bəstəkar-rejissor ssenarisi əsasında yaradır və sanki "çoxsəsli ümmanda daim közərən musiqi özəyinin təkrarı dinləyicinin diqqətini, emosional enerjisini getdikcə ələ alan magik təsir qüvvəsi ilə heyran edir, mənəvi-etik, fəlsəfi, faciəvi-dramatik rənglərə meyl edir. Registr, dinamik inkişafın ən yüksək nöqtəsində yerləşən dramatik kulminasiya əsl katarsis təəssüratlı sakitliklə əvəz olunur" [2,116].

Katarsisin modeli kimi təqdim olunan ritual-mərasim, əsatiri-inanc, oyun-tamaşa tipli müəllif kompozisiyalarını bir neçə qrupa ayırmaq olar: əbədi od məskəni - müqəddəs Azərbaycan torpağının qədimiliyini ifadə edən "Kosa-kosa" balet-pantomimində (1975) Novruz bayramı; "Dərviş", "Səma", "Ürfani", "Müğfil"də zikir çəkən sufi dərviş-qəvvallarının "Tanrını yad etmə" dəstgah-mərasimi; "Qəsidə" və "Mərsiyə"də müqəddəslərin vəsf edilməsini (Kərbəla hadisələri, İmam Hüseyn ailəsinin anılması) ifadə edən və dini səciyyə daşıyan matəm mərasimi; "Pirəbədil", "Ayin", "Dance of fire", III simli kvartetdə ("Tetraksis") muğ-azərban kahinlərinin atəşə tapınmasını ifadə edən qədim ritual ruhlu kompozisiyalar buna misaldır. Zərrədən yaranan tezis-mözunun variantlarla təkrarı üzərində qurulan əsərlərin adından göründüyü kimi, məzmun və forma vəhdət təşkil edərək bir-birini tamamlayır.

R.Həsənovanın diqqət mərkəzində xalqımızın ulu əsatir-inanc, oyun-tamaşaları ilə yanaşı dünyanın müxtəlif qitələrində icra edilən mərasimlər də özünə yer almışdır. Şərqin Şumer-akkad, şaman-ovsun magiyası, dərviş mərasimləri, qədim yunan mifologiyası, Asiya və Afrika xalqlarının unudulmuş təriqətləri və ritual-ayin estetikası - bir sözlə ən müxtəlif ritual-mərasimlər onun sənət dünyasında təzahür edir. Bəstəkarın sərhəd tanımayan zəngin təxəyyülü, yüksək zəkası, dünyaduyumu, görüş dairəsi və erudisiyasının hərtərəfli olması, universal inanclara göstərdiyi maraq onun yaradıcılığının geniş mədəni-tarixi kontekstini və bəşəriliyini bildirir.

Bəşəriyyətin bədii-estetik irsinə, etnomədəniyyət obrazlarına, o cümlədən poeziya, memarlıq, rəqs, dekorativ-tətbiqi sənət, xalçaçılıq, qurama, şəbəkə və s. olan meyl R.Həsənovanın özünəməxsus bədii təfəkkürünün özəlliklərini aşkarlamağa imkan verir. Müasir musiqidə bu obrazların qeyri-adi, görünməmiş bir tərzdə ifadəsi müəllifin sənət dünyasında ritual-mərasim estetikasının təzahür unikallığını daha gözəçarpan edir. Bəstəkar milli və bəşəri ritual-mərasim, oyun-tamaşa estetikasının tarixi köklərindən şirə çəkərək öz musiqi əsərlərində mükəmməl informasiya məkanı olan alaçığa bənzər qədim yurtaların ruhunu və gözəgörünməz dərin mətləblərin maraqlı bədii təfsirini vermişdir. Onun kodlaşdırdığı orijinal başlıqlı kompozisiyalarında ("The mystical moon", "Qavaldaş", "Mandala", "Yurt", "Sumerian isometries", "Eos-Helios" və s.) yaşı bilinməyən uzaq dövrlərin əks-sədası hökm sürür. Qədim ehram tərzində qurduğu strukturun inşası üçün müəllifə sadə bir zərrədən toxunmuş musiqi özəyi yetərlidir: qədimilik ruhunu ifadə edən məhdud intervallı arxaik repetisiyalar, muğam ənənələri ilə minimalizm prinsiplərinin vəhdəti göz oxşayır.

Rəhilə Həsənovanın yaradıcı fərd kimi unikallığı həm də ondadır ki, o, adı qeyd olunan əbədi-bəşəri ünsürləri musiqi əsərlərinə həkk etdirməklə kifayətlənmir, onları həm də elmi - nəzəri cəhətdən araşdırır. Burada nəzəriyyə və təcrübənin bərabər əsasda olması tamam-kamal düşünülmüşdür: müəllifin elmi-analitik baxışlarının bəstəkarlığı qədər qüvvətli olduğu üzə çıxır. Güclü və tutarlı özünütəhlil sahibi olan Rəhilə Həsənova istər bəstələdiyi əsərlərində, istərsə də tədqiqat işlərində bəşəriyyətin əzəlindəki vacib məfhumlardan söz açır. Müəllifin "Katarsisin yeni modeli" [3,382], "Simvol, Orfey, Prometey, Korifey" [4,478], "Mandala - musiqi təfəkkürü tiplərinin dünyavi simvolu kimi" [5,96], "Yurta məkanı" [6,316] adlı məqalələrini qeyd etmək olar. R.Həsənova musiqişünaslığımızda səs problemi ilə bağlı olaraq nəzəri cəhətdən tamamilə yeni bir müstəvidə təhlilə cəlb etdiyi bir çox məsələləri (musiqi səsi, səs cisimləri, səs dalğasının dinamik prosessuallığı, dalğa spektri, intonasiya simvolikası və s.) bəstələdiyi əsərlərində sınaqdan keçirərək irəli sürdüyü nəzəri müddəalarla bəstəkarlıq təcrübəsinin tam vəhdətini əldə edir. Hər iki mənada – nəzəri-praktiki cəhətdən adı qeyd olunanlar postmodern musiqi məkanında bu vaxta qədər təsadüf olunmamışdır.

Bəstəkarın qızıl kəsişmə zonasında yerləşən adının çoxmənalı anaqramı ("Rahila"/ "Re-lya"/ "Günəş Allahı") əsərlərinin daxili məzmununu, avtobioqrafikliyini, bu səslərə konstruktiv münasibəti, fono-informativ və antropoloji kodları dərk etməyə imkan verir. Həmin səslərdəki sakrallıq və dərin hikmət müəllif adının özünəməxsusluğu ilə tam şəkildə üst-üstə düşür ki, bu da onun nəzəri görüşlərinin [7,137] bəstəkarlıq təcrübəsi ilə bərabər əsasda olduğunu (ağac nəfəs alətləri kvarteti üçün "Solar winds", simfonik orkestr üçün "Eos-Helios" və s.) növbəti dəfə təsdiqləyir.




**Şəkildə:** *R. Həsənova və K. Ələsgərli (14.02.2007-ci il)*

Bu məqamda D.Şostakoviçin maraqlı bir fikrini xatırlamaq məqsədəuyğundur: "Mən elə hesab edirəm ki, hər bir bədii əsərdə bioqrafik, tərcümeyi-hala aid əlamətlər mövcuddur. İstənilən əsərdə canlı insan, müəllif hiss olunmalıdır. Əsərin yaradıcısı bəlli olmadıqda, bu, cansıxıcı və maraqsızdır" [8]. A.Losev adla bağlı nəzəri konsepsiyanı "Özünü elə özündəcə tapıb, aşkar etmək" kimi müəyyənləşdirir və tamamilə haqlı olaraq yazır: "Bu, yalnız riyazi konstruksiyaların məntiqinə bərabər olan idrakın sarsılmaz dialektik tələbidir" [9, 77]. Bu fikri əsas görürərək Rəhilə Həsənovanın əsərlərində kodlaşdırılan çoxmənalı simvollar (səs - söz - ədəd) onun analitik təfəkküründə vacib yer tutan "məcusi səs" - "dalğa spektrinin arxitektura planıdır" [10,175]. Bir sıra əsərlərdə müəllif üçün bir şəxsiyyət kimi xüsusi məna kəsb edən və onun tərəfindən sakral hesab edilən 1, 11 rəqəmlərinin əhəmiyyəti də maraq doğurur (məsələn, fortepiano üçün 11 fuqa-postlüd silsiləsi - "New baroque fugues and postludes"). Bəstəkarın əsərlərində səs-söz-ədədi simvollar müxtəlif dünyaları bir-biri ilə görüşdürən möcüzəli informasiya məkanıdır.

Onun orijinal fərdi layihələri sırasında özünə yer alan zəncirvari beş musiqi - xalça kompozisiyasını ("Pirəbədil", 1996; "Şəddə", 2009; "Verni" 2009; "Zili", 2013; "Pazırıq", 2014) qeyd etmədən ötüşmək olmaz. Bu kompozisiyalar müqəddəs ocaqları dildən-dilə gəzən dogma elimizin müxtəlif guşələrində toxunan xalçalarda uzaq keçmişimizin qaynaqlarından məlumatlar əldə etməyə, bütöv təsəvvür yaratmağa imkan verir. Hələ bizim eradan əvvəl VII əsrdə Midiya sənətkarları tərəfindən toxunan və tariximizin çətin sınaqlarından keçərək zəmanəmizə qədər gəlib çıxan bu qocalmaz məktub-naxışlarda el oyunlarımızdakı milli rəqs, oxuma və tamaşa-teatr ünsürlərini, ulu əcdadlarımız tərəfindən şəxsləşdirilib ilahləşdirilən təbiət qüvvələri (yel, su, od, torpaq) ilə bağlı mərasim oyun-tamaşalarının ("Azərxuş", "Azər şənlikləri", "Kəvsəc", "Mahtabi" və s.) izini görürük.

Müəllif zəngin təxəyyülünün qüdrəti nəticəsində kökü çox-çox qədimlərdən xəbər verən əsatiri tamaşalarımızın baş qəhrəmanları olan muğ kahinlərinin sitayiş yeri - müqəddəs od ətrafında onların icra etdikləri "muğ ibadət-oyunları"nı (Quba zonası, Dəvəçi rayonunda atəşpərəstliyin qədim ocaqlarından biri olan "Bədil" - bəd nəzər piri + eyniadlı xalça) kamera-instrumental ansambl üçün bəstələdiyi "Pirəbədil" xalça kompozisiyasının üzərinə düzmüşdür. Müəllifin fikrinə görə "muğlar hələ də bu ənənəyi sadiq qalaraq, ildə bir dəfə gəlib o zonada öz mərasimlərini keçirirlər" [11,100]. İbtidai magiya mərasim-ayinlərindən güc alaraq bəstəkar "Pirəbədil" kompozisiyasının quruluşunda Müqəddəs Sözü (Allah الله) üç dalğa şəklində kodlaşdırır. Üç mərhələdən hər biri inkişafın daxili

xəttinin yekunu olub, biri digərindən yüksəkdədir. Sonuncu mərhələ bütün kompozisiyanı bitirir və formanın quruluşunda muğam sənəti üçün tipik pilləvariliyi yaradır.

"Pirəbədil"in davamı olan "Şəddə", "Vərni", "Zili" və "Pazırıq" musiqi – xalça kompozisiyaları da həmçinin din, etiqad, inam və duanı özündə cəmləşdirən səhnələşdirilmiş mistik əsərlərdir. Bu əsərlərin dini ruhda yazılması bəstəkar tərəfindən mifologiya, din, fəlsəfə, təbiətlə bağlı materialların uzun illər boyu mənimsənilməsi nəticəsində ərsəyə gəlmişdir: "Şəddə"də üfqi cərgə üzrə hərəkət edən karvan; "Vərni"-də (yaxud "Pərni") "Pərsabad" + su ünsürü; "Zili"də zəngin ritmik növbələşmələrlə ifadəsini tapan nağılabənzər flora; ən qədim xalçalarımızdan olan "Pazırıq"da (e.ə.V əsr) saqaların törəmələri – 24 oğuz boyunun "Hun çiçəyi" simvolu təsvir olunur.

Müqəddəs ocaqları dildən-dilə gəzən dogma el-obamızda ibtidai magiyanın ayrılmaz tərkib hissəsi olan ritmik başlanğıc Rəhilə Həsənovanın qüvvətli bəstəkarlıq texnikası ilə mükəmməl surətdə özünü bəlli edir. Əzəli enerji mənbəyi olan ibtidai ritmik vurğularla bəstəkarın daxili bağlantıları, ümumiyyətlə onun fitrətən ritmik təbiətli olması özü unikal bədii hadisədir: Musiqi Akademiyasında "Asiya və Afrika xalqlarının musiqisi" fənninin bizə tədrisi zamanı onun nadir ritmik istedadının əyani şahidi olmuşuq. Həyatın nüvəsini təşkil edən ritmik başlanğıcı o, öz əsərlərində orijinal tərzdə əks etdirmişdir. Zərb alətləri ansamblı üçün "Ayin" kompozisiyası, iki fortepiano və zərb alətləri üçün 1 saylı konsert bu qəbildəndir.

**Nəticə**

Metamüasirlik dövrü ayrı-ayrı parlaq istedadların, təkrarsız, özünəməxsus dəst-xəttlərin dövrü kimi səciyyələnir. Rəhilə Həsənova məhz bu sıraya mənsubdur. "Həqiqətən də, keçən əsrin sonluğunun musiqi panoraması daha çox bənzərsiz yaradıcılıq simaların çeşidli axtarışları, cəsarətli eksperimentləri ilə təyin edilmişdir. Bu baxımdan çağdaş Azərbaycan musiqi mədəniyyətinin rəngarəng mənzərəsini bəstəkar Rəhilə Həsənovanın yaradıcılığından kənarda təsəvvür etmək qeyri-mümkündür. Tam cəsarətlə demək olar ki, məhz Rəhilə Həsənovanın yaradıcılığı müasir humantar sferanın bütün sahələri üçün səciyyəvi olan qlobal-universal və etnik-fərdi təmayüllərin sintezinin bədii təzahürünün ən uğurlu nümunələrindən biridir" [12,4].

Malik olduğu bəstəkar öncəgörməsi ilə R.Həsənova illər əvvəl qələmə aldığı araşdırmalarının birində Şərqlə Qərbi yaxınlaşdırmağa doğru irəlilədiyini söyləmişdir [13,48]. Qarşısına daim mürəkkəb yaradıcılıq məsələləri qoyan və onları kamali qaydada həll edən Rəhilə Həsənova müasir dövrün Şərq-Qərb müstəvisində üzü gələcəyə baxan nadir musiqi kahinidir. Müəllifin öz sözləri ilə desək: "Çox zaman mən arxetipik ideal axtarışı vəziyyətində oluram. Hətta bəzən düşüncələrimdə bəşəriyyət tarixinin dərinliklərinə varıram: sanki mənim 2000, 3000 yaşım var… Fikrimdə qədim köklərlə əlaqəni yaratdıqdan sonra, ideyalar özləri ərsəyə gəlir" [14, 490]. Unudulmuş təriqətlərin, qədim oyun-tamaşaların dərin qatlarının yeni innovativ məzmunda dinləyicilərə təqdim edilməsi baxımından "ənənəvi musiqi və müasir bəstəkar" problemi məcrasında Rəhilə Həsənovanın yaradıcılığı yeni Azərbaycan musiqisinin son nailiyyətləri və şəksiz sənət uğurları sırasındadır.

## ƏDƏBİYYAT

1. Гасанова Р. Человек молящийся // "Şərqi", BMA, 2003, №3-2, с.188
2. Əliyeva F. Öz dəst-xətti ilə seçilən sənətkar Rəhilə Həsənova // "Azerbaijan İrs", 4-5, 2000, s.116
3. Гасанова Р. Новая модель катарсиса, Б. «Элм», 2006, 382 с.
4. Həsənova R. Simvol. Orfey. Prometey. Korifey // Azərbaycan milli musiqisinin tədqiqi problemləri. V buraxılış. B., "Adiloğlu", 2004, s.478
5. Həsənova R. Mandala - musiqi təfəkkürü tiplərinin dünyavi simvolu kimi // "Musiqi dünyası", 1-2/35, 2008, s.96
6. Гасанова Р. Пространство юрты и башенное время // Актуальные проблемы изучения гуманитарных наук. Межвузовский сборник научных статей. Б. "Mütərcim", №3, 2005, s.316

7. Гасанова Р. Фоно-информативный анализ азербайджанской народной песни «Sarı gəlin» // AMEA. İncəsənət və mədəniyyət problemləri, B. "Təknur", 2008, №1 (23), s.137
8. Пятая симфония Шостаковича // «Литературная газета», 1938, 12 января.
9. Лосев А. Философия имени. Москва: Изд-во Московского университета, 1990, с. 77
10. Həsənova R. Saylar - səs dalğasının spektrinin arxitektura planıdır // AMEA Memarlıq və İncəsənət Universiteti. İncəsənət və mədəniyyət problemləri. B, "Səda", 2007, №2-3 (20-21), s.175.
11. Ələsgərli K. Rəhilə Teymur Həsənovanın musiqi dünyası, B, "Təknur", 2009, s.100
12. Dadaşzadə K. Kitaba verilən rəylər // Ələsgərli K. Rəhilə Teymur Həsənovanın musiqi dünyası, B, "Təknur", 2009, s.4
13. Гасанова Р. Восток-Запад, иду на сближение // Müqayisəli sənətşünaslıq: nəticələr və perspektivlər. I elmi-tədqiqat konfransı. Bakı, "Tural-Ə", NPM, 2003, s.48
14. Dadaşzadə Z. Rəhilə Həsənova // Azərbaycan musiqi tarixi, V c. (red.Z.Səfərova), Bakı: Elm, 2020, s.490

***Üzeyir Hacıbəyli adına Bakı Musiqi***
***Akademiyasının "Musiqi tarixi"***
***kafedrasının professoru,***
***sənətşünaslıq üzrə elmlər doktoru***
***E-mail: aleskerli-kamalia@rambler.ru***

**Kamala Alasgarli**

**THE EMBODIMENT OF THE AESTHETICS OF RITUAL CEREMONIES IN THE WORKS OF RAHILIA HASANOVA**

This article was presented by the author at the International Scientific Conference "Ethnomusicology at the Crossroads of Scientific Paradigms" held on December 14, 2021 at the Azerbaijan State University of Art and Culture (Baku, Azerbaijan). The musical imagination of the composer Rahilia Hasanova (1951-2024), who has a rich spiritual world, is closely connected with the culture of rituals-ceremonies, spectacle-theatrical. The genetic connection not only with Azerbaijan, but also with the rituals and beliefs of different peoples of the world shows the humanity of the work of this composer. She draws "juice" from the historical roots of the aesthetics of ritual-ceremonies, spectacles-theatricals, which are widely known, and reveals the spirit of antiquity and the secrets of deep themes in her musical works. The presence of instrumental theatrical elements and an individual project in the composer's works reveals the qualities her as a author and the director. In this regard, in the context of the problem of "traditional music and contemporary composer", the work of Rahilia Hasanova is one of the latest achievements of modern Azerbaijani music.

**Keywords:** *sound-number, symbol-praise, myth-faith, spectacle-theatrical, ritual-ceremony.*

**Кямаля Алескерли**

**ВОПЛОЩЕНИЕ ЭСТЕТИКИ РИТУАЛЬНЫХ ОБРЯДОВ В ТВОРЧЕСТВЕ РАХИЛИ ГАСАНОВОЙ**

Настоящая статья была представлена автором на Международной научной конференции «Этномузыкология на перекрестке научных парадигм», состоявшейся 14 декабря 2021 года в Азербайджанском государственном университете искусства и культуры (Баку, Азербайджан). Творческая фантазия, наделенного богатым духовным миром композитора Рахили Гасановой

(1951-2024) тесно связана с культурой обрядовых ритуалов и театральных представлений. Генетическая связь с верованиями и обрядами как Азербайджана, так и других народов мира демонстрирует общечеловеческую направленность и ценность творчества композитора. В широком смысле ощущая эстетику и извлекая квинтэссенцию из исторических корней обрядовых ритуалов и представлений, она раскрывает и внутреннюю суть и сам дух старины в своих музыкальных произведениях. Присутствие в обрядового типа композициях элементов инструментального театра и наличие индивидуальных проектов раскрывают также режиссерские качества автора. С этой точки зрения творчество Рахили Гасановой является одним из последних достижений современной азербайджанской музыки в контексте проблемы «традиционная музыка и современный композитор».

**Ключевые слова:** *звук-число, символ-воспевание, миф-вера, театральное представление, ритуал-обряд.*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 10.02.2025**
**Son daxilolma tarixi:15.03.2025**